Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəsi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 107 saylı Qazax seçki dairəsindən İkinci Şıxlı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Mikayılov Qurban İsmayıl oğlunun 2014-cü il dekabrın 27-də Mərkəsi Seçki Komissiyasına daxil olmuş 27 dekabr 2014-cü il tarixli, 65 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 28 dekabr 2014-cü il

Mən, ekspert qrupunun üzvü Qabil Orucov 2014-cü il dekabrın 23- də keçirilmiş bələdiyyə seçkilərində 107 saylı Qazax seçki dairəsindən İkinci Şıxlı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Mikayılov Qurban İsmayıl oğlu və Musayev İlham Səməndər oğlunun Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 27 dekabr 2014-cü il tarixli, 27 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən araşdırmaya qəbul edilmişdir.

2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 107 saylı Qazax seçki dairəsindən İkinci Şıxlı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Mikayılov Qurban İsmayıl oğlu və Musayev İlham Səməndər oğlu 2014-cü il dekabrın 27-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, həmin seçki dairəsinin 27 və 28 saylı seçki məntəqələrində səsvermə günü saxtakarlığa yol verilməsi və səsvermənin nəticələrinin hesablanması zamanı seçki qanunvericiliyinin tələblərinin pozulduğunu iddia etmiş və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipini əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Ərizəçilər Q.İ.Mikayılov və İ.S.Musayev 28 dekabr 2014-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət

edərək şikayətlərindən imtina etdiklərini bildirmiş və müraciətin araşdırılmasına xitam verilməsini xahiş etmişlər.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci və “Azərbaycan Respublikası Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 107 saylı Qazax seçki dairəsindən İkinci Şıxlı bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Mikayılov Qurban İsmayıl oğlu və Musayev İlham Səməndər oğlu şikayətlərindən imtina etdiklərinə görə 27 dekabr 2014-cü il tarixli 65 saylı müraciətin araşdırılmasına xitam verilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov